*Əlavə 1*
*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin 18.04.11 il tarixli,*
*44 nömrəli əmri ilə*
*təsdiq edilmişdir*

SOCAR

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin standartlaşma sistemi.**
**Kadr ehtiyatı bazasının formalaşdırılması**
(SOCARSS – 012.2011)

---

**01.1. Standartlaşmanın məqsədi** – ARDNŞ üzrə yaranacaq vakant iş yerlərinə namizədlərin axtarışı, seçilməsi və yerləşdirilməsini təmin etmək məqsədilə kadr ehtiyatı bazasının (KEB) formalaşdırılması. Standartlaşmanın məqsədinə dair bu standart sənədlə tənzimlənməyən digər məsələlər məsul qurumun müvafiq qaydada təsdiqlənmiş iş planına əsasən tənzimlənir.

**01.2. Məsul qurum** – müvafiq qurum ARDNŞ-nin prezidentinin əmri ilə müəyyən edilir.

**01.3. KEB-in formalaşdırılması mərhələləri** – KEB-in formalaşdırılması aşağıdakı mərhələlərdən ibarətdir:

1. *Elanların rəsmləşdirilməsi və yerləşdirilməsi;*
2. *Sənədlərin qəbulu;*
3. *Sənədlərin seçimi;*
4. *Test imtahanlarının keçirilməsi;*
5. *Keçid balların müəyyənm edilməsi;*
6. *KEB-in yaradılması və sistemləşdirilməsi.*

**01.4. Elanların rəsmləşdirilməsi və yerləşdirilməsi** - elanların rəsmləşdirilməsi və yerləşdirilməsinə daxildir:

1. *Elanın təsdiq edilməsi* – elan ARDNŞ-nin Kadr, rejim və informasiya texnologiyaları üzrə vitse-prezidenti tərəfindən təsdiq edilir.
2. *Elanın yerləşdirilməsi müntəzəmliyi* - elanlar ildə iki dəfə ARDNŞ-nin rəsmi veb-səhifəsində və KİV-də yerləşdirilir;
3. *Elanın məzmunu* – elanda tələb olunan ixtisasların siyahısı, müraciətlərin edilməsi üçün müraciət formasının linki və son müddət göstərilir.

**01.5. Sənədlərin qəbulu** – müraciət edənlərin sənəndləri ARDNŞ-nin rəsmi veb-səhifəsində yerləşdirilmiş elektron müraciət formasını doldurulmaqla qəbul edilir. Sənədlərin siyahısı müvafiq standartla tənzimlənən müraciət formasında göstərilir. Müraciət forması elekron bazaya daxil olan şəxslər məsul qurum adından avtomatik bildiriş alırlar. Bildirişdə hər bir müraciət edənə onun fərdi identifikasiya nömrəsi (FİN) barədə məlumat verilir.

**01.6. Konfidensiallığın təmin edilməsi** – bütün müraciət edənlər müvafiq FİN vasitəsilə ARDNŞ-nin veb-səhifəsindən özlərinin cari statusları barədə məlumat ala bilərlər.

**01.7. Sənədlərin ilkin seçimi** – müraciət sənədləri əsasında məsul qurum tərəfindən ilkin seçim aparılır. Yalnız sənədlərini tam şəkildə və müvafiq qaydada təqdim etmiş şəxs məsul qurum tərəfindən seçilir və namizədlər siyahısına daxil edilir. İlkin seçiminin nəticəsi barədə hər bir müraciət edən məlumatlandırılır. Namizədlər test imtahanına buraxılırlar.

**01.8. Test imtahanının keçirilməsi** – test imtahanlarının keçirilməsinə aşağıdakılarla məhdudlaşmayan məsələlər daxildir:

1. *Test imtahanı keçirən qurum* - test imtahanı bu standartın 01.2-ci bəndi ilə müəyyən ediləcək məsul qurum və ya kənardan cəlb edilmiş ixtisaslaşmış təşkilat tərəfindən həyata keçirilir.
2. *Test suallarının strukturu* – test sualları namizədlərin məntiqi bilik səviyyəsinin, ixtisası, Azərbaycan və ARDNŞ haqqında ümumi biliklərinin müəyyən edilməsinə yönələn suallar blokundan ibarətdir (testlərin strukturu müvafiq standartla tənzimlənir).
3. *Test tapşırıldıqlarının qiymətləndirilməsi* – ARDNŞ-nin müvafiq standartı ilə tənzimlənir.
4. *Test imtahanlarının nəticələri* – namizədin test imtahanlarının fərdi nəticəsi barədə məlumat ARDNŞ-nin veb-səhifəsində yerləşdirilir.

**01.9. Keçid balların müəyyən edilməsi** – Keçid balları ixtisas qrupları üzrə diferensial qaydada müəyyən edilir. Keçid balları üzrə müvafiq departament tərəfindən verilən təkliflər ARDNŞ-nin Kadrların İdarə Edilməsi Komitəsi tərəfindən təsdiq edilir.

**01.10. KEB-in yaradılması və sistemləşdirilməsi** - Keçid ballarından az olmayan bal toplayan namizədlər KEB-ə daxil edilir. KEB-ə daxil olan namizədlər müvafiq meyarlar üzrə məsul qurum tərəfindən sistemləşdirilir.